BYTYN ƏLKƏLƏRIN PROLETARLARƏ, BIRLƏŞIN!

QOMMUNIST

ERMƏNISTAN Q(B)P MQ və JQ-nin GYNDƏLIK ORQANЫ
ОРГАН ЦК И ЕК КП(б) АРМЕНИИ

20 IJUL
ÇYMƏAXŞAMЫ
1939-çu il
№ 165 (2485)
QIJMƏTI 10 Q.

Bugynky nömrədə

- ŞANLЫ HƏRBI-DƏNIZ FLOTU GYNYNƏ JAXŞЫ HAZЫRLAŞAQ (Baş məqalə)
- QЫZЫL MEJDANDA 18 IJULDA FIZQULTURACЫLARЫN YMUMITTIFAQ PARADЫ (1-çi səh.)
- PARTIJA HƏJATЫ (2-çi səh.)
- DƏMIRJOLCULARЫN STALIN GYNYNY STAXANOV HƏRƏKATЫNЫN JENI JYKSƏLIŞILƏ QARŞЫLAMALЫ (2-çi səh.)
- SOSHEJVANDARLЫQLЫ DAHA DA INKIŞAF ETDIRƏK (3-çy səh.)
- XARIÇI ƏLKƏLƏRDƏ (4-çy səh.)

Şanlı Hərbi-Dəniz Flotu gynynə jaxşı hazırlaşaq

Ijulun 24-də şanlı Hərbi -Dəniz Flotu gynydyr. Bu tarixi gyn-Sovet xalqları ycyn ən xoşbaxt və ən tarixi gynlərdən biridir.

SSR Ittifaqı Xalq Qomissarları Sovetinin Ymumittifaq Hərbi —Dəniz Flotu gyny kecirmək haqqında qərarını vətənimizin millionlarla zəhmətkeşləri cox böjyk şadlıqla qarşıladılar. Cynki bu gyn-24 ijul ymumxalq bajramы kimi, SSR Ittifaqı Hərbi- Dəniz Flotu tikilişi və inkişafı məsələləri ətrafında geniş zəhmətkeş kytlələri mobilizasija etmək gyny kimi qejd olunur. Həmin gyn ölkəmiz, Sovet Hərbi -Dəniz Flotumuzun inkişafı və möhkəndəndirilməsi sahəsində əldə etdijimiz qalibijjətlərə jekun vurur və onun nailijjətlərini qejd edir.

Bizim dəniz sərhədlərimiz qurıda və hava da olduqu kimi möhkəmdir. Bizim Sovet xalqı —öz Hərbi Dəniz Flotunu sevir və onu jyksək qijmətləndirməji bacarır. Yzərində böjyk Stalinin, bytyn qalibijjətləri - mizin sykancısı olan bu diqqətəşajan adamın portreti olan bajraqı - mız ən uzaq şimalda -belə böjyk şadlıqla jellənir.

Sovet xalqının jaratdığı və tərbijə etdiji Hərbi—Dəniz Flotu—Sovet Dəniz sərhədlərini acıq gözlylyklə myhafizə edir, texniqanın son sözy ilə dojuzdurulmuş hərbi gəmilərimiz isə, dyşmənə ən qorxulu bir qyvvə olaraq jaşajır və gyny-gyndən artır.

Bizim sovet xalqı- sovet dənizcilərimiz vətəni mydəfiə vaxtasında möhkəm durmuşdurlar. Onlar, dyşmənə istənilən vaqtda, istənilən sahəjədə sarsıdıcı zərbə endirməjə hazırdırlar.

Rusija dənizciləri bytyn dəjyşlərdə dyşmənə qalib gəlmiş və onu əzmişdir. Hələ imperialist myharibəsi dövryndə belə rus dənizciləri nemeslərlə dəjyşlərdə böjyk qalibijjət nymunələri göstərmişdirlər. Revoljusija dövryndə qızıl dənizcilər böjyk ystynlyk göstərərək, revoljusijanın qələbəsi uqrunda inadla dəjyşdylər.

Sovet hökuməti öz Dəniz Flotunu jaratmaq ycyn az iş görməmişdir, sovet dənizciləri kecilməz dəniz sərhədərimizi myhafizə etmək ycyn texniqanın son sözy ilə silahlanaraq cox böjyk iş gördylər və görməkdədirlər.

Partija və hökumət qydrətli Hərbi-Dəniz Flotu dyzəltmək haqqında qərar qəbul etmişdir. Bu qərar bytyn sovet xalqımız tərəfindən böjyk ruhjyksəkliji ilə qarşılandı. Sovet xalqı bu gözəl flotun inkişafına başladı və Hərbi-Dəniz Flotumuz doqrudanda qıssa bir myddət ərzində Sovet hökumətinə lajiqli bir şərəf qazanmaqa myvəffəq oldu.

Bizim Hərbi —Dəniz Flotumuz, bizim bytyn hərbi qyvvələrimiz dyşməni istənilən dəqiqədə onun gəldiji momentdə, öz gəldiji terri - torijada əzməjə hazırdır.

Sosialist sənajeimiz qəhrəman Hərbi —Dəniz—Flotumuza texniqanın son sözy ilə silahlanmış az imkanlar verməmişdir!

Bizim hərbi gəmilərimizin, hərbi dəniz sursatlarımızın birinci dərəcəli olduquna hec söz ola bilməz. Kecirilən bir sıra Hərbi - Dəniz manevraları - bizim dəniz Flotumuzun, hərbi dəniz mydafiə imkanlarımızın dynjada birinci dərəcəli olduqunu bir daha isbat etdi!

Sovet xalqının, gyny-gyndən cicəklənən və artan Hərbi -Dəniz Flotu ilə fəxr etməjə haqqı vardır.

Sovet hökumətinin, Sovet sərhədlərini qorumaq ycyn qıssa bir myddətdə bytyn imkanları olduqu və bu imkanlardan səmərəli surətdə istifadə etmək imkanı olduqu faktdır.

Bytyn sovet xalqı, sovet Hərbi-Dəniz qyvvələrinin böjyməsi və artması ilə dərindən maraqlanır.

Kecənlərdə sovet hökumətinin Hərbi-Dəniz -Flotunda həqiqi xidmət haqqında SSRI Baş Soveti Prezidiumunun fərmanı-bytyn sovet xalqının nəzər -diqqətini özynə cəlb etdi və bu sahəjə onların böjyk maraqına səbəb oldu.

Bizim xalqımız - jalnız Hərbi-Dəniz Flotumuzun olması ilə jox, onun adamlarının dəjyş hazırlıqının jyksək səvijjədə olması və vətənimiz mydafiəjə hazır olduqları ilə daha cox və jaxından maraqlanırlar.

Bizim Fəhlə -Kəndli Hərbi -Dəniz Flotumuzun şəxsi hejəti- olduqca inanılmış, hazırlıqlı, sosialist vətənimizin patriotları və fədakar gənc bolşeviqlərdən ibarətdir. Onlar Lenin-Stalin tərbijəsi almış gənc bolşeviqlər və qommunizmin elməz idejaları ilə ruhlanmış qəhrəmanlardan ibarətdir! Onları bizim bytyn sovet xalqı hörmət və sevgi ilə qarşılamışdır.

Bizdə —SSRI-da Qızıl Flotcu adı -ən şərəfli addır. Buna görə də bizdə- gənclər Qızıl Flota böjyk həvəs və ruhjyksəkliji ilə daxil olurlar. Dənizlərdə və okeanlarda gəzən gəmilərimizdə az gənclər tərbi jələnmir. Gənclər -bizim Hərbi -Dəniz Flotcularımızın qızıl fondudurlar.

Sovet hökumətinin ölkə mydafiəsinə jənəldilmiş hər bir təşəbbysy—ymumxalq iftixarına və gözəl əkssədasına səbəb olur.

Sovet xalqı ijulun 24-də özynyn böjyk və qydrətli Hərbi -Dəniz Flotunun jaradılmasının ildönymyny bajram edəcəkdir! Bu gözəl tarixi gyn mynasibətilə ölkəmizin hər tərəfində geniş hazırlıq işləri aparılır.

Ermənistanın sənaje myəssisələrində, qolxoz və sovxozlarda doqma Hərbi Dəniz Flotu gynynə ciddi hazırlaşırlar. Sevan gəly dənizcilik idarəsi, S. Q, Ararat, mexaniq zavodları, taxta -şalban qombinatı qolleqtivləri 24 ijulu jeni istehsalat reqordları ilə qarşılamaq ycyn staxanov hərəkatını dahada genişləndimək dədirlər.

Bytyn idarə və myəssisələrdə Hərbi Dəniz Flotu gynyndə mə'ruzə vermək ycyn rajqomlar tərəfindən xysusi mə'ruzəçilər ajrılmışdır.

Bu bajram, vətənimizin dəniz sərhədlərinin alınmazlıqına, qızıl flotumuzun möhkəmlijinə, qızıl flotcularımızın dəniz sərhədlərimizi mydafiə etməjə nə qədər hazır olduqlarını bir daha nymajiş etdirəçəkdir!

24- ijul — Ymumittifaq Hərbi-Dəniz gyny— dynjada ən qyvvətli dəniz flotunun quruluşu işinə millionlarça jeni xalq kytlələrinin çəlb olunmasına mobilizasija gyny olaçaqdır.

Gənclərin bu qədər maraqlı işə-olan hədsiz həvəsi diqqətəşajandır. Vətənimizin millionlarla gənclərі Hərbi-Dəniz Flotunun son dərəcə böjyk mə'na və əhəmijjətini başa dyşərək, bu sahədə oxumaqa və təhsillərini başa verməjə calışırlar. Buna çanlı sybut olaraq, Leninqrad Hərbi- Sijasi -Dəniz -Flotu məktəbini gətyrmək olar. Bu məktəbin qəbul qontingenti 300 nəfər olduqu halda, hələlik bura 4.000 ərizə verilmişdir.

Bizim sovet qalendarı-jeni rəqəm —24 ijul -rəqəmi ilə daha zənginləşdi. Bu gyn-sovet patriotlarının ymumxalq bajramı olmalıdır.

Partija və hökumətin və şəxsən böjyk Stalinin qajqı və diqqətinə çavab olaraq, Hərbi-Dəniz Flotumuz bundan sonrada, öz dəjyşçyl- sijasi hazırlıqının möhəkləndiräçək və dyşməni gəldiji öz sularında əzməjə daha qabilijjətli olaçaqdır.

Sovet xalqı- özynyn dinç və xoşbaxt həjatının keşikcisi olan Hərbi-Dəniz Flotunu möhkəmləndirmiş və bundan sonrada möhkəmləndiräçəkdir.

Bizim sovet Hərbi-Dəniz Flotumuz dyşmənlərə zərbə vuraraq xoşbaxt sovet xalqının şadlıqı keşikçisi və mydafiəcisi olaraq gyny-gyndən möhkəmlənir, artır və bundan sonra daha böjyk templərlə qyvvətlənəçəkdir!

Hərbi-Dəniz Flotu gynynə cox az qalmışdır. Jerli partija, sovet, həmkarlar təşkilatlarının əsas vəzifələri qydrətli Hərbi-Dəniz Flotumuzun qydrət və baçarığını, onun dyşmənə sarsıdıcı zərbə vurmaq imkanına malik olduqunu vətəni - mizin bytyn xalqlarına başa salmaqdan ibarətdir.

Hərbi -Dəniz Flotu gyny —vətənimizin dəniz sərhədlərinin alın - mazlıqının və qydrətinin baxış gynydyr. Bugyn, bytyn zəhmətkeşləri ölkəmizin mydafiəsinin bu çəhətinə daha dərindən diqqət verməjə mobilizasija etmək gynydyr.

Lenin-Stalin partijasının və şəxsən Stalin joldaşın təşəbbysy ilə daha böjymədə və qyvvətlənmədə olan Hərbi-Dəniz Flotu gynynə ən jaxşı nailijjətlərlə hazırlaşaq.

SOVET ITTIFAQЫNDA

FKQO qomanda hej'ətini təkmilləşdirən Budjonnı adına Qızılbajraqlı qursdan dinləjiçilər buraxılışı

Q. J. VOROŞILOV joldaşın təbriki

NOVOCERQASSQ, 16 ijul (TASS). FKQO qomanda hej'ətini təkmilləşdirən Budjonnı adına Qızılbajraqlı səvari qursundan dynən dinləjiçilər buraxılmışdır. Dinləjiçilərin 50 prosentdən coxu dərsi «ə'la» qurtarmışlar.

Qursun stadionunda şəxsi hej'ətin paradı olmuşdur. SSRI Baş Sovetinin deputatı, polqovniq, yc dəfə orden almış Navrotski joldaş qursantları dərsi myvəffəqijjətlə qurtarmaq mynasibətilə təbrik etmişdir.

Qursun qomandanlıqı adına xalq mydafiə qomissarı Sovet Ittifaqı Marşalı Voroşilov joldaşdan, Sovet Ittifaqı Marşalı Budjonnı joldaşdan, ikinci ranq ordu qomandiri Qorodoviqov joldaşdan və başqalarından təbriklər alınmışdır.

Voroşilov joldaş öz təbrikində jazır:

«Budjonnı adına Qızılbajraqlı səvari qursunu qurtarmaq mynasibətilə dinləjiçiləri təbrik edirəm. Ijid səvarilərimizin sıralarında myvəffəqijjətli və jaradıcı işləmələrini arzu edirəm.»

Uralın Qolcaqdan xilas edilməsinin 20 illiji

SVERDLOVSQ, 15 ijul (TASS). Bugyn Sverdlovsqda 1905-çi il mejdanında fəhlə, qulluqcu və intelligensijanın jyz min nəfərlik mitinqi olmuşdur. Bu mitinq Uralın Qolcaq bandalarından xilas edilməsinin 20 illiji mynasibətilə kecirilmişdir.

YIQ (B) P oblast qomitetinin katibi Andrianov joldaş mitinqi acaraq demişdir ki, şərq çəbhəsinin aqır bir momentində partijanın Mərkəzi Qomiteti Stalin joldaşı buraja göndərmiş idi. Onun gəlişi ilə ruhlanan qızıl polqlar on qat gyçly və ə'la silahlanmış dyşməni darmadaqın etdilər. Stalin beşilliklərində bolşeviqlərin iradəsilə Ural ə'la sənaje mərkəzinə cevrilmişdir.

Andrianov joldaş Stalin joldaşın şərəfinə saqlıq səjlədikdə gurultulu «ura» səsləri mejdanın hər bir tərəfindən uçalmış, «Internasional» səsi gurlamışdır.

Mitinqdə iştirak edənlər Stalin joldaşa və onun mybariz silahdaşları Molotov və Voroşilov joldaşlara böjyk ruh jyksəkliji ilə təbrik qəbul etmişlər.

Ijulun 13-də SSRI Baş Soveti Prezidiumunun sədri M. I. Qalinin joldaş Ittifaqın təltif olunmuşlarına ordenlər və medallar vermişdir. ŞƏKILDƏ: M. I. Qalinin, Ermənistan SSR Baş Soveti Prezidiumunun sədr myavinlijinə secilmiş myəllim S. M. Sahaqjana Lenin ordeni verir.

Qızıl mejdanda 18 ijulda fizqulturacıların Ymumittifaq paradı

V. V. SNEQOV JOLDAŞIN NITQI

Joldaşlar, fizqulturacılar və fizqulturacı qadınlar, Ymumittifaq fizqultura paradının iştirakçıları! Fizqultura və Sport İşləri Ymumittifaq Qomiteti adından Sizə salamlar jetirirəm və birinci Ymumittifaq fizqulturacı gyny mynasibətilə Sizi təbrik edirəm. (Alqışlar).

Fizqulturacı gynynyn kecirilməsi haqqında hökumətin qərarı göstərir ki, fizqultura və sport —dövləti əhəmijjətə malik olan böjyk işdir. Hökumətin bu qərarı bizim böjyk sosialist vətənimizin vətəndaşlarının hər tərəfli inkişaf etməsi haqqında Stalin qajqıkeşlijinin jeni əlamətidir. Bizim dövlətimizdə fizqultura zəhmətkeşlərin qommunist tərbijəsinin ajrılmaz bir hissəsi, saqlamlıqı möhkəmlətməjin qydrətli vasitəsi, əmək və mydafiəjə hazırlıqının ən myhymm vasitələrindən biridir.

Sovet Ittifaqında fizqulturanın və sportun myvəffəqijjətləri myzəffərana sosializm quruluşu myvəffəqijjətlərinin nətiçəsidir. Bugynky paradımız Lenin-Stalin milli sijasətinin təntənəsinin parlaq nymajişi olaçaqdır. Dynjada Sovet Sosialist Respubliqaları Ittifaqından başqa hec bir ölkə joxdur ki, orada, fizqultura və sport ilə məşqul olmaq ycyn zəhmətkeşlərin o qədər imkanı olsun. Fiziki tərbijə haqqında, filquttura hərəkatının gələcəkdə daha da jyksəlişi haqqında partija və hökumətin ən böjyk qajqısının biz, partijanın və şəxsən Stalin joldaşın öjrətdikləri kimi işləməjimizlə bytynlyklə doqrultmalıjıq. (Gurultulu alqışlar, «ura!» nidaları).

Jeni imperialist myharibəsi alovlarının qızışdıran faşist barbarları myxtəlif provoqasijalarla bizim sərhədlərimizin toxunulmazlıqını pozmaqa təşəbbys edirlər. Lakin bizim sərhədlərimiz möhkəm qıfıldadır, Fəhlə- Kəndli Qızıl Ordusunun və Hərbi -Dəniz Flotunun e'timadlı mydafiəsi altındadır. Millionlarla möhkəm, mətin, dajanıqlı sovet fizqulturacıları partijanın və Fəhlə-Kəndli hökumətinin birinci caqırışında, Sosializm ölkəsinin məqlubedilməz ordusunun qydrətli rezervi olduqlarını işdə göstərəçəklər.

Jaşasın Sovet hökuməti və onun başcısı Molotov joldaş! («Ura!» nidaları, «Internasional»).

Jaşasın Ymumittifaq Qommunist (bolşeviqlər) partijası, sosializm qalibijjətlərinin təşkilatcısı və ilham - cısı!

Jaşasın böjyk Stalin!

(Gurultulu alqışlar. «Ura!» nidalar, «Internasional»).

N. A. MIXAJLOV JOLDAŞIN NITQI

Joldaşlar, fizqulturacılar və fizqulturacı qadınlar —fəhlələr və fəhlə qadınlar, qolxozcular və qolxozcu qadınlar, intelligentlər, Sovet Ittifaqının qardaş milli respubliqalarının nymajəndələri, bizim sevimli Fəhlə-Kəndli Qızıl Ordumuzun nymajəndələri! Ymumittifaq Lenin Qommunist Gənclər Ittifaqı Mərkəzi Qomiteti adından sizə alovlu qomsomol salamı jetirirəm!

Bugyn, Fizqulturacı gynyndə, sovet xalqı qarşısında jalnız fizqultura və sport sahəsindəki nailijjətlərimizi dejil, bolşevik partijası, hökumət, Stalinci Mərkəzi Qomitet ətrafında, gənclərin sevimli dostu və böjyk myəllimi Stalin joldaş ətrafında sarsılmaz birlijini dəxi göstəririk. (Gurultulu alqışlar. «Ura!» nidaları).

Joldaşlar bytyn dynjada ən xoşbaxt sovet gəncləridir. Bolşevik partijası bizim qarşımızda gözəl naqıllarda bəhs olunan dynjalar kimi gözəl bir dynja acmışdır ki, onun haqqında böjyk jaşlı nəsillər ançaq, xəjal edirdi. Bolşevik partijasının qəhrəmançasına myvəffəqijjətləri ilə əldə edilmiş əmək, istirahət, təhsil hyqu-qu bizim jaşajışımıza möhkəm daxil olmuşdur. Bizim bytyn myvəffəqijjətlərimizlə bolşevik partijasına, onun vozdu və rəhbəri, sovet gənclərinin ən jaxşı dostu — Stalin joldaşa borçlujuq. (Alqışlar).

Bax buna görə də hamımız bugynky gyny şad həjəcanla, böjyk məs'ulijjət hissijlə gözləjirdik. Parad da iştirak edənlərdən hər biri - Mosqva, Leninqrad zəhmətkeşləri, qardaş milli respubliqaların nymajəndələri, Qızıl Ordu dəjyşcysy—bugyn Qızıl mejdana bolşeviqlərin böjyk partijasına, sovet hökumətinə, Stalin joldaşa alovlu möhəbbət sözy və salamı gətirmişdir. (Alqışlar). Bugyn biz təkrar e'lan edirik ki, bolşevik partijasının jetişdirdiji və böjytdyjy javrusu Lenin -Stalin Qomsomolunu ondan ajıraçaq hec bir qyvvət joxdur. Qomsomol bolşevik partijasının sadiq köməkcisi və mybariz rezervi olub, qalır və olaçaqdır.

Millionlarla sovet fizqulturacıları adından, gənclərin Leninci-Stalinci ittifaqının millionlarla yzvləri adından Qommunist (bolşeviqlər) partijasının Mərkəzi Qomitetini və partijanın vozdu Stalin joldaşı, Sovet hökumətini və onun rəhbəri Molotov joldaşı inandırmaqa içazə verin ki, qommunizmin böjyk işini myzəffərana başa catdırmaq qətijjətilə dolu olan sovet gənclərі hər bir dəqiqə öz vətənini mydafiəjə qalxmaqa Xasan dərslərindən ibrət almajanlar ycyn həmin dərsləri təkrar etməjə hazırdırlar.

Jaşasın bizim sovet xalqımız, qəhrəmanlar xalqı, jaradıcılar xalqı!

Jaşasın qomsomol—bolşevik partijasının sadiq köməkcisi və mybariz rezervi!

Jaşasın bizim böjyk, mydrik, bizi qommunizmə doqru aparan bolşeviqlər partijası!

Jaşasın bizim dahimiz, bizim rəhbər və myəllimimiz, fizqulturacıların ən jaxşı dostu, bytyn dynja zəhmətkeşlərinin dostu — böjyk Stalin! (Gurultulu alqışlar. «Ura» nidaları. «Internasional»).

N. M. ŞVERNIQ JOLDAŞIN NITQI

Joldaşlar! Bugyn, fizqulturniq gynyndə, böjyk Sovet Ittifaqının bytyn şəhərlərində bizim xoşbaxt sovet gənclərі özlərinin sport nailijjətlərini, sarsılmaz qydrət və qyvvələrini, çəsarətlərini və partija və hökumətin birinci caqırışı yzrə öz sevimli sosialist vətəninin mydafiəsinə hazır olduqunu nymajiş edir.

Siz, Ymumittifaq fizqultura paradının iştirakçıları, bizim ölkənin ən xoşbaxt fizqulturniqlərisiniz, cynky öz nailijjətlərini Leninin-Stalinin böjyk partijasının Mərkəzi Qomitetinin qarşısında, sovet hökumətinin qarşısında, fizqulturniqlərin ən jaxın dostu, bizim vozdumuz və myəllimimiz — böjyk Stalinin qarşısında nymajiş etmək şərəfi sizə nəsib olmuşdur (Alqışlar, «ura» nidaları).

Fizqultura hərəkatı jalnız bizim ölkədə coxmillionlu kytlələrin hərəkatı olmuşdur. Xalqların böjyk vozdu Stalin joldaş fizqultura hərəkatının inkişafı haqqında hər gyn ata məhəbbəti ilə qajqı cəkir. («Ura» nidaları).

Fizqultura hərəkatının inkişafına, sport təşkilatlarının möhkəmlənməsinə sovet hökuməti və şəxsən Molotov joldaş böjyk fikir verirlər.

Fəhlə sinifinin ən kytləvi təşkilatı olan həmkarlar ittifaqının vəzifəsi, bytyn sport təşkilatlarının vəzifəsi fizqultura hərəkatını gyndən-gynə möhkəmlətməkdən, onun sıralarına zəhmətkeşlərin jeni və jeni millionlarını çəlb etməkdən və fəhlələrin, qulluqcuların və sovet intelligensijasının səhhətini fizqulturanın bərpa etməsinə, onların zəhmətini sevinçli və məhsuldar etməjə myavinət etməkdən ibarətdir.

Qommunizm quruluşu yzrə bytyn bu böjyk işimizdə olduqu kimi, zəhmətkeşlərin tərbijə işində də biz, böjyk Stalinin qapitalist əhatəsi haqqındaki göstərişlərini xatırda saxlamalıjıq.

Biz, imperialist myharibəsi və SSRI-na qarşı arası kəsilməjən provoqasijalar şəraitində, dyşmənlərlə əhatə edilmiş ölkəmizdə qommunizm qururuq. Bizim fizqulturniqlər dejilki jalnız staxanovçasına işləməlidirlər, sosializm dyşmənlərini xasançasına dəjmək ycyn, hətta dəjyşə də hazır olmalıdırlar.

Jaşasın sovet fizqulturniqləri!

Jaşasın böjyk Sovet Ittifaqı xalqlarının sarsılmaz dostluqu!

Jaşasın bizim ölkədə sosializm qalibijjətlərinin vozdu və təşkilatcısı—Leninin-Stalinin böjyk partijası!

Bizim böjyk Stalinə-fizqultura «ura»sı! (Gurultulu, uzun -myddətli alqışlar, dəfələrlə «ura»).

Xalq Xariçi İşlər Qomissariatında

11 ijulda Molotov joldaş danışıqqlarını davam etdirmək ycyn Ingiltərə səfiri ç. Siidsi, Fransa səfiri ç. Naçiarı və ç. Strenqi qəbul etmişdir.

★

Bu il 16 ijulda xalq xariçi işlər qomissarının myavini S. A. Lozovski joldaş adına Mosqvada Japonijanın səfiri ç. Toqonun notası alınmışdı. Həmin doqumentdə Japonija səfiri Şimali Saxalində japon neft və kömyr qonsessijalarının qejri myntəzəm fəalijjəti ilə əlaqədar olan məsələləri mejdana qojurdu, həmcinin Saxalin adasında japon qonsessionerlərinin qanunsuz hərəkətlərinə dair sovet möhkəmə orqanlarının mə'lum qərarına qarşı e'tiraz edirdi.

Nətiçədə Japonija səfiri öz doqumentində, onun tərəfindən qojulmuş məsələlərə bu ajın 18-dən geç olmajaraq çavab verilməsini ultimativ formada tələb edirdi.

Bu il 17 ijulda, xalq xariçi işlər qomissarının myavini S. A. Lozovski joldaş, Xalq Xariçi İşlər Qomissariatının tapşırığı ilə, həmin notanı Japonija səfirinə qajtararaq göstərmişdir ki, səfirin göndərdiji doqumentdə təhdidlər olduquna və ultimatum xaraqteri daşıdığına görə, Xalq Xariçi İşlər Qomissariatı həmin doqumenti qəbul etməji mymkyn hesab etmir və nəzərə almadan geri qajtarır.

Vinnitsa oblastının on min qolxozcusu Ymumittifaq kənd təsərryfat sərgisinə gedəçəkdir

VINNITSA, 15 ijul (TASS). Bu il avqust və sentjabr ajlarında Ymumittifaq kənd təsərryfat sərgisinə Vinnitsa oblastından on min qolxozcu gedib tamaşa edəçəkdir. Indi qolxozlarda, sərgijə getmək haqqını qazanmaq ycyn qolxozcular arasında sosializm jarışı genişləndirilmişdir.

Baş sərgi qomiteti oblastın 3.526 qolxozunu, sovxozunu və hejvandarlıq fermasını və kənd təsərryfat qabaqcıllarını Ymumittifaq kənd təsərryfat sərgisinə qandidat claraq təsdiq etmişdir. Hər gyn xysusi vaqonlarda Mosqvaja eqsponatlar göndərilir.

PARTIJA HƏJATЬ

QOTAJQ RAJONUNDA PARTIJAJA QƏBUL IŞLƏRI

Sovet ölkəmizin, coxmillionlu və coxmillətli zəhmətkeşləri -fabriqa zavodlarda, sovxoz və qolxoz tarlalarында calışan staxanovcu və zərbəcilərin YIQ(в)P sıralarına girməjə olan çoşqun həvəsləri Lenin-Stalin partijasının millionlarla xalqlar arasında hədsiz aftoritetinin olduqunu göstərir.

Qotajq rajonunda partija propaqanda və agitasija işlərinin jaxşı qurulması ilə partijaja qəbul işləri də jaxşı təşkil edilmişdir.

Ermənistan SSR Baş Sovetinin deputatı və Qotajq rajon partija qomitetinin birinci katibi Levon Sahbazjan joldaş partija propaqanda və partijaja qəbul işlərinə jaxından başçılıq edir. Rajonun 38 ilk partija təşkilatında YIQ(в)P yzvlyjynə qandidatlardan bu il janvar ajının birindən ijun ajına kimi 45 nəfər qandidatlıq stazları tamamlanaraq partija yzvlyjynə dəjişdirilmişdir. Həmin myddətdə rajonda staxanovcu və zərbəcilərdən 119 nəfər partija yzvlyjynə qandidat qəbul edilmişdir. Partija yzvlyjynə jeni qəbul olunan qandidatların əksərijjəti YIQ(в)P XVIII Qurultajı tərəfindən qəbul və təsdiq edilmiş partija Ustavı əsasında ilə qəbul edilənlərdir.

Qotajq rajonunun bir sıra ilk partija təşkilatlarında partijaja qəbul işləri jaxşı təşkil edilmişdir. Belə ki, rajonun Jelqovan kənd ilk partija təşkilatında (bjuro katibi Petros Melqonjan joldaşdır) 1938-çi ildə 13 nəfər partija yzv və qandidatı olduqu halda, bu il qolxoz tarlalarında calışan staxanovcu və zərbəcilərdən 8 nəfər partija yzvlyjynə qandidat qəbul edilmişdir. Zod kənd ilk partija təşkilatında (bjuro katibi Hovsep Qasparjan joldaşdır) partija yzv və qandidatlarının sajı 11 nəfərdən 20 nəfərə catmışdır. 1938-çi ilin axırına kimi Avad kəndində (kyrd kəndidir) jalnız bir nəfər partija yzvy var idi. Partija yzvy Musto Əlijev joldaşın kənddə kyrd zəhmətkeşləri arasında partija propaqanda və agitasija işlərini jaxşı təşkil etdijindən bu il janvarın joldaşlardan 8 nəfər YIQ (в) Partija yzvlyjynə qandidat qəbul edilmişdir. Partija qandidatlıqına jeni qəbul olunanlar arasında Musto Əlijev joldaş Lenin -Stalin partijası ustavını və YIQ (в)P XVIII Qurultajı qərarlarını geniş izah edir.

Rajon partija qomiteti ilk partija təşkilatında, rajon içraijjə qomiteti ilk partija təşkilatında partijaja qəbul işləri jaxşı təşkil edilmişdir.

YIQ(в)P sıralarına jeni qəbul olunanlar arasında geniş izahat işləri aparmaq ycyn rajon partija qomitetinin və bytyn ilk partija təşkilatlarının gerəçək işləri olduqca coxdur. Buna gərə də rajonun 18 agitqolleqtivində olan 120 nəfər agitator, YIQ (в) P XVIII Qurultajında Stalin joldaşın tarixi mə'ruzəsi və qurultajın bytyn qərarlarını qolxozcular arasında geniş izah etdikləri kimi, partija yzvlyjynə qandidatlıqa jeni qəbul olunan qandidatlar arasında da jaxşı iş apararlar. Ən jaxşı calışan agitatorlardan Şahbazjan Qriqor, Torniq Sarkisjan (Gərnidən), Baqrat Simonjan (rajon maarif şe'bəsindən) Nahapetjan, Manuqjan, Ardo Babajan, Adibeq və sairə joldaşları göstərmək olar. Bu joldaşlar xysusilə YIQ (в)P yzvlyjynə jeni qəbul olunan qandidatlar arasında geniş izahat işləri apararaq, partija ustavını onlara öjrədirlər.

Ermənistan LQGI Qotajq rajon təşkilatında da qomsomola qəbul işləri jaxşı təşkil edilmişdir. Rajonda 69 ilk qomsomol təşkilatında bu il janvar ajının birindən ijun ajına kimi məktəbli və qolxozcu gənclərdən 213 nəfər qomsomol sıralarına jeni qəbul edilmişdir ki, bunlardan 45 nəfəri gənc qızlardır. Bundan başqa ən jaxşı qomsomolculardan partija qandidatlıqına da verilmişdir.

Bu ilin birinci jarım illiji myddətində jaşı catmış aqtiv qomsomolculardan 60-nəfər və qomsomolcu qızlardan 17 nəfərin YIQ(в)P yzvlyjynə qandidat kecmək ycyn verdikləri ərizələri rajon qomsomol qomitetinin bjurosu baxaraq, onlara reqomendasija vermişdir ki, bunlardan 65 nəfərinin partija qandidatlıqına qəbulunu artıq rajon partija qomitetinin bjurosu təsdiq etmişdir. (Gərni, Vocxarabert, rajon qooperativi, Kənəkir kənd məktəbi və sairə ilk təşkilatlarda partija və qomsomol sıralarına qəbul işləri jaxşıdır).

Lakin qejd etmək lazımdır ki, rajon qomsomol qomiteti istər ittifaqda olmajan gənclərin qomsomola qəbul edilməsində və istərsə də aqtiv qomsomolcuların partija yzvlyjynə qandidat kecmək ycyn onlara reqomendasijaların verilməsində hər kəsə individual surətdə jaxından tanış olmasına jaxşı fikir verilmir. Misal ycyn maj ajının 7-də rajon qomsomol qomiteti bjurosunun bir içlasında 20 nəfər qomsomolcunun ərizəsinə baxılaraq partija yzvlyjynə qandidat kecmək ycyn onlara topdan tutma jolu ilə reqomendasija verilmişdir.

Qotajq rajon partija və qomsomol təşkilatları qəbul işlərində olan myvəffəqijjətləri bir daha artırmaqla qejd olan noqsanlara tezliklə nəhajət verib, partija və qomsomol sıralarına qəbul məsələsinə daha ciddi fikir verməlidirlər.

ƏSƏDOV

Stepanavan tam orta məktəbinin ən jaxşı myəllimi Qohariq Qriqorjan joldaş YIQ(в)P sıralarına qəbul olunmaqa hazırlaşır.
ŞƏKILDƏ: Qohariq Qriqorjan YIQ(в)P tarixini təkbaşına öjrənərkən.
Foto B. Qazazjanındır.

Partijaja qəbul işinə daha ciddi fikir verməli

Lenin-Stalin partijası, YIQ(в) P sıralarının təmiz və möhkəm olmasına həmişə fikir verdiji kimi, partijaja qəbul işinə də ciddi fikir vermiş və verməkdədir.

Jerevan «Ararat» zavodu ilk partija təşkilatının bjuro katibi və Ermənistan SSR Baş Sovetinin deputatı Gevorq Qasparjan joldaşın jaxşı calışmasından zavodun ən jaxşı adamları, staxanovcuları partija sıralarına qəbul edilirlər. XVIII partija Qurultajından ijun ajına kimi partija yzvlyjynə 6 nəfər qandidat qəbul edilmiş və 8 nəfər qandidatlıqdan partija yzvlyjynə dəjişdirilmişdir. Bu partija təşkilatının yzvlərindən Setraqjan Marqar 1931-çi ildən partija yzvlyjynə qandidat dır. Ancaq o, partija tərəfindən iki dəfə töhmət aldıqına gərə onun partija yzvlyjynə dəjişdirilməsi işi hələ dajandırılmışdır.

Ararat zavodunun ilk partija təşkilatında agitasija və propaqanda işləri dəxi jaxşı əsaslar yzrə qurulmuşdur. Burada partija yzv və qandidatlarından 57 nəfəri təkbaşına olaraq partija tarixini həvəslə öjrənirlər. Bunlardan Ajvazjan Muquç, Harutjunjan Arşavir, Qarapetjan Samvel və başqaları sistematik surətdə öz yzərlərində calışırlar. Bundan başqa partija tarixini öjrənən bir sijasi dərnək dəxi təşkil edilmişdir ki, burada 30 nəfərdən artıq iştirak edir. Zavodun partija qabinetində erməni, rus dillərində hər çyr sijasi, ədəbi və bədii kitablar vardır ki, buda partija tarixini təkbaşına öjrənənlərə kömək edir.

M. Ə.

Rajon partija qomiteti hərbi-fizqult işlərinə pis rəhbərlik edir

Qrasnoselo rajonunda hərbi-fizqult işləri bəjənilməzdir. Istər rajon qomsomol qomitetində və istərsə ilk qomsomol təşkilatlarında mydafiə məsələləri myzakirə edilməmişdir. Qejd etmək lazımdırki, rajonda olan 1.235 qomsomoldan jalnız 425-i Osoaviaximə yzvdyr. Osoaviaxim təşkilatı tərəfindən verilən mə'lumatlara gərə rajonda bir necə hərbi dərnək işlədijinə baxmajaraq, həmin dərnəklər mynasib vasitələrlə tə'min edilməmişlər. Bunun nəticəsində də 1939-çu il ərzində mydafiəjə aid hec bir norma verilməmişdir. Bir necə kənddə, o çymlədən Janıxpəjə, Əmrxer və A. Çambaraq kəndlərində hələ indijə kimi Osoaivaxim təşkilatları joxdur. Osoaviaxim rajon sovetinin sədri Apresjan və fizqult rajon sovetinin sədri Hovhannes Harutjunjan öz işlərinə qejdsiz mynasibət göstərirlər. Osoaviaxim rajon sovetinin pis rəhbərliji nəticəsində bytyn 1939-çu il ərzində bir necə kənddən başqa hec bir jerdə Osoaviaxim təşkilatının jıqınçaqları caqırılmamışdır. Fizqultura sahəsində vəziijət daha pisdir. Demək olar ki, J. Çambaraq və Qrəsnoselo kəndlərindən başqa özgə hec bir kənddə fizqult dərnəkləri joxdur.

Xalq maarif şe'bəsi və rajon torpaq şe'bəsi fizqultura işinə çənajətkar mynasibət göstərirlər. Bytyn qolxozlarda fizqultura işinin jaxşı təşkili ycyn Xalq Qomissarları Sovetinin qərarı jerinə jetirilmir. Qejd etmək lazımdır ki, Ermənistan SSR Xalq Qomissarları Sovetinin janındakı fizqult qomiteti və Osoaviaxim rajon sovetinin rajonun fizqult işlərinə rəhbərliji jarıtmazdır.

A. Danieljan

Vedi rajonunun qolxozcuları tarixi qərarı jekdilliklə bəjənirlər

Vedi rajonunun bytyn qolxozlarında YIQ(в)P MQ və SSR Ittifaqı Xalq Qomissarları Sovetinin «qolxozların içtimai torpaqlarının daqıdılmaqdan myhafizə etmək tədbirləri haqqında»-kı qərarının izah olunması geniş surətdə davam etdirilməkdədir.

Ijunun 10-na kimi rajonun bytyn kəndlərində qolxozcuların ymumi jıqınçaqları kecirilmiş və bu jıqınçaqlarda, həmin qərar oxunub izah edilmişdir. Jıqınçaqlarda cıxış edən qolxozcu və qolxozcu qadınlar, öz cıxışlarında və qəbul etdikləri qərarda, partija və hökumətin qolxozları daha da möhkəmləndirmək ycyn olan bu myhymm qərarını hədsiz ruhjyksəkliji ilə qarşılamışlar.

Rajonun Daşlı kənd qolxozunda kecirilən jıqınçaqda cıxış edən qolxozcu Qriqor Bazigjan demişdir:

—YIQ (в)P MQ və SSRI Xalq Qomissarlar Sovetinin bu tarixi qərarı qənimətcilərə qarşı ən jaxşı tədbirdir. Bu qərar, qolxozlarımızı daha da möhkəmləndirəçək və məhsuldarlıqın daha da qyvvətli surətdə artmasına səbəb olaçaqdır. Xalqların sevimli vozdu Stalin joldaşın namuslu qolxozculara olan bəjyk qajğısı bu qərarda tam ajdınlıqla hiss olunur.

Jıqınçaqlarda cıxış edən qolxozcu və qolxozcu qadınlar YIQ(в)P MQ və XQS-nin bu qərarının tarixi əhəmijjətini qejd etməklə, bir sıra qolxozlarda artel Ustavının bə'zi maddələrinin pozulduquna dair qonqret faqtlar göstərmişlər.

Rajonun Şirazlı, Qaralar, Rehanlı, Xalsa, B. Vedi, Ararat və sairə qolxozlarında qənimətci və tənbəl qolxozcular, həjətjanı torpaqı ilə spequljasija edən qolxozcular az dejil.

Şirazlı kənd «III Internasional» qolxozunun «qolxozcusu» Paşa Həsənovun 0,25 heqtar yzym baqı vardır. O, həmdə öz qohumu Pənah Əlijevin həjətjanı torpaqından istifadə edir. Həsənov hər il jajlaqa gedir və qolxoz yzvynyn bytyn hyquqlarından istifadə edir. Ararat Şahumjan adına qolxozunun qolxozcusu Vano Qazarjanın ailəsində 3 işləjən vardır. Ancaq onlar qolxozda işləmirlər. Vanonun 0,50 heqtar yzym baqı var və öz oqlunun 0,50 heqtar baqını da beçərir.

Qaralar qolxozunun yzvy Baqrat Şahbazjan 2 ildir ki kənddən getmişdir və Vaqarşabad MTS-nin direqtorluqu işində calışır. Lakin, onun həjətjanı torpaqını öz qardaşı beçərir. Bu qolxozun yzvlərindən, qənimətci qolxozcu Mehti Rəsul oqlu kecən il qolxozda ancaq 30 zəhmət qazanmışdır. O, bu ilin janvarından indijə kimi çəmi 12 əmək gyn qazanmışdır.

Həjətjanı torpaq almaq məqsədilə saxta ajrılan qolxozculardan Jaqub Hysejnovu (Qaralar), Vano Qazarjanı (Ararat) və başqa bir coxlarını göstərmək olar.

Rajonda bir cox qolxozcuların həjətjanı torpaqları artel ustavında göstəriləndən xejli artıqdır. Belə hallara ən cox Şirazlı, Gəravan, Xalsa və başqa kəndlərdə rast gəlmək olar.

«Qolxozların içtimai torpaqlarının dəqıdılmaqdan myhafizə etmək tədbirləri haqqında» YIQ(в)P MQ və SSR Ittifaqı Xalq Qomissarları Sovetinin tarixi qərarının myzakirəsi, rajonun bytyn namuslu qolxozcularını daha da ruhlandırmışdır.

Bu qərarın myzakirəsindən sonra rajonun bir cox kəndlərində işə cıxanların sajı xejli artmışdır. Tarixi qərarın dərindən myzakirə edilməsi qolxozlarda əmək intizamının daha da möhkəmlənməsinə səbəb olmuşdur.

YIQ(в)P MQ və SSRI XQ Sovetinin myvariz qərarı ilə ruhlanan Vedi rajonunun partijalı və partijada olmajan bolşeviqləri qolxoz həjatının sarsılmaz qanunu olan, artelin Stalin Ustavına dyzgyn əməl olunması və YIQ (в) P MQ-nın Maj Plenumu qərarlarının sarpmadan jerinə jetirilməsi uqrunda inadlı myvarizəjə qoşulmuşdurlar.

F. Ismajilov

Həmkarlar ittifaqı orqanlarının seckiləri

Bir ajdan artıqdır ki Jerevan Spandarjan rajonunda həmkarlar ittifaqı orqanlarının seckilərinə başlanmışdır. Seckilər ən əvvəl, ibtidai və orta məktəb işçilərinin 28 həmkarlar ittifaqı təşkilatının hamısında secki jıqınçaqları artıq qurtarmış və həmin jıqınçaqlar həmkarlar ittifaqı yzvlərinin çoşqun surətdə genişləndirilən jyksək sijasi aqtivlik və özynytənqid atmosferasında kecmişdir. Bu nəqteji- nəzərdən Berija, Spandarjan, Əzizbəjov, Proşjan və Rustaveli adına məktəblərin həmkarlar ittifaqı təşkilatları xysusi olaraq qejd edilməjə lajiqdir. Həmkarlar ittifaqı orqanlarının secki tə'limatının secki jıqınçaqlarından əvvəl geniş surətdə kytləviləşdirib bytyn həmkarlar ittifaqı yzvlərini sijasi-kytləvi əhatə etməklə həmin təşkilatların secki jıqınçaqlarının bəjyk mytəşəkkilliklə kecirmiş, həmkarlar ittifaqı işlərində olan noqsanları aşkara cıxarmış və həmkarlar ittifaqı orqanlarına jeni və bacarıqlı işçiləri irəli cəkmişlər.

Həmin təşkilatlarda həmkarlar ittifaqı orqanları seckilərinin myvəffəqijjətli gedişini ilk partija təşkilatlarının ən jaxşı işilə izah etmək lazımdır. Bu ilk partija təşkilatları həmkarlar ittifaqı işini özlərinin doqma işi hesab edərək, hər cəhətcə omunla məşqul olurlar.

Lakin ilk partija təşkilatlarından bə'ziləri həmkarlar ittifaqı orqanlarının seckilərinə myhymm iş kimi janaşmamışlar. Məsələn: Abovjan adına məktəbdə, ilk partija təşkilatı (katib Siruş Hovhannesjan joldaşdır) secki qampanijasının rəhbərlijini öhdəsinə götyrmədiji və həmkarlar ittifaqı jerli qomitetinin pis fəalijjəti nəticəsində Militos Qarapetjan, Tonaqan Marqarjan və başqaları secki jıqınçaqının şəxsi məsələlər jerinə cevirərək, məktəbin ən jaxşı işçilərini təhqir etmişlər. Həmin jıqınçaq özynyn sijasi jyksəkliji yzərində durmamış və mytəşəkkilsizlik belə də prinsipsiz myzakirə nəticəsində bu jıqınçaq iki gyn əvəzinə beş gyn davam etmişdir.

Bundan başqa burada həmkarlar ittifaqı jaxud həmin qolleqtivin yzvy olmajan Qohariq Haqobjan, Andraniq Elcuçjan və başqaları çəmi 8 nəfər- acıq səsvermədə iştirak etməklə, həmkarlar ittifaqı demoqratijası kobudçasına pozulmuşdur.

Həmkarlar ittifaqı orqanlarını seckiləri tiçarət texniqumunda (buraja Mqrtic Hovaqimjan təhkim edilmişdi) və kimja texniqumunda da (buraja Baqdasar Astuni təhkim edilmişdi) pis getmişdir. Burada həmkarlar ittifaqı jıqınçaqları bir necə dəfə proval edilmişdir.

Indi Spandarjan rajonunun digər həmkarlar ittifaqı təşkilatlarında da seckilər dəvam edir. Rajonun partija və həmkarlar ittifaqı təşkilatları kecirilən secki jıqınçaqlarının təcrybəsini hesaba alaraq, həmkarlar ittifaqı orqanlarının seckilərini mytəşəkkil surətdə kecirmək və həmkarlar ittifaqının rəhbərlijinə ən jaxşı və bacarıqlı adamları irəli cəkmək ycyn kytləvi-sijasi işi daha da genişləndirməlidirlər.

M. Harutjunjan
(EQ (в) P Spandarjan rajon qomitetinin katibi)

Dəmirjolcuların Stalin gynyny staxanov hərəkatının jeni jyksəlişilə qarşılamalı

Ijulun 30-u Sosialist dəmirjol transportu ycyn, bytyn ölkəmiz ycyn məşhur gyndyr. Dörd il əvvəl həmin gyndə dəmirjolcular Qremldə Stalin joldaş tərəfindən, partija və hökumət rəhbərləri tərəfindən qəbul edilmişdirlər.

Yc il əvvəl SSRI MIQ, hər il ijulun 30-nu sosializm ölkəsi dəmirjol transportunun Ymumittifaq gyny kimi bajram etmək haqqında qərar qəbul etmişdir.

Bu qərar, sosialist transportunun jeni jyksəlişi uqrunda, kytləvi staxanovculuq —qrivonosculuq hərəkatının daha inkişafı uqrunda, parovoz və vaqon dövrijjəsinin syr'ətləndirilməsi, həlledici jyklərin daşınmasının jaxşılaşdırmaq və sərnişinlərə daha jaxşı xidmət etmək uqrunda myvarizə etmək ycyn səfərbərlijə alıcı bəjyk dövlət əhəmijjəti vardır.

O vaqt Stalin joldaş SSRI-da dəmirjol transportunun bəjyk dövlət əhəmijjəti haqqında, sənaje mərkəzlərinə xam mal və ərzaq verən kənd təsərryfat oblast və rajonları ilə həmin mərkəzləri birləşdirərək bytöv sənaje oçaq və mərkəzlərinə cevirən və jaxşı təşkil olunmuş dəmirjol transportu olmadan belə nəhəng bir dövlətin xalq təsərryfatının inkişafı mymkyn olmadıqı haqqında danışmışdır.

Dəmirjolcuların Qremldə qəbul olunduqu gyn —30 ijul - hər il dəmirjol transportunun Ymumittifaq gyny kimi kecirilir. Həmin gyndə ölkəmizin zəhmətkeşləri dəmirjolcular ilə birlikdə, dəmirjol transportunun jeni myvəffəqijjət və qələbələrinə jekun vururlar. «Dəmirjol transportunun qələbəsi ölkəmizin hər bir zəhmətkeşinə jaxındır. Hələ təkcə ona gərə ki, dəmirjol transportunun noqsanlarından, səhvlərindən, pis işindən bytyn zəhmətkeşlər əzab cəkirdilər: cərəji, səbzavatı, mejvələri vaqtında daşımırdılar, pambıqı teqstil fabriqalarına vaqtında daşımırdılar və sairə) (L. M. Qaqanovic). Partija və bəjyk Stalin, 1935-çi ilin mart ajında Lazar Moisejevic Qaqanovic joldaşı —sosializm quruluşunun digər sahələrində öz rəhbərlijilə ölkəmizə qələbələr verən bəjyk təşkilatçının bacarıqlı təsərryfatçının transporta göndərdi.

Qaqanovic joldaşın rəhbərlijilə indi bizim dəmir jol transportu xalq təsərryfatının ən qabaqcıl sahəsinə cevrilmişdir.

Dəmirjolcular arasında on minlərlə staxanovcu— qrivonoscular vardır. Stalin joldaş staxanovcu fəhlələrin və fəhlə qadınlarını birinçi Ymumittifaq myşavirəsində demişdir:

«...Vəzifə ondan ibarətdir ki, staxanov hərəkatını daha da genişləndirmək və onu SSRI-nın bytyn oblast və rajonlarında eninə və dərinlinə jajmaq ycyn staxanovculara jardım göstərilsin. Bu bir tərəfdən və o biri tərəfdən —köhnədən inadlı bir surətdə japışan, irəli getmək istəməjən və staxanov hərəkatını genişlənməsini sistematik bir surətdə tormozlajan təsərryfatcılardan və myhəndis texniki işcilərdən olan bytyn elementlər çilovlansın. Staxanov hərəkatını ölkəmizin hər tərəfinə tamamilə jajmaq ycyn, haman bunun ycyn təkcə staxanovcular, əlbətdə, kifajət dejildir. Bizim partija təşkilatlarının bu işə qoşulması və hərəkatı axıra qədər aparmaqda staxanovculara jardım göstərmələri zəruridir...».

Stalin joldaşın bu göstərişləri həqiqətən öz əks ta'sirini almışdır. Minlərçə jeni adamlar jetişdirilmişdir, jyzlərçə staxanovcular məs'ul postlara irəli cəkilmişdir. Indi artıq dəmirjolu nacalniqi vəzifəsində işləjən maşinist Qrivonosun, Odnojevin, Boqdanovun şanlı adları bytyn ölkədə səslənmişdir.

Staxanov hərəkatı Zaqafqazija dəmirjolunun VI şe'bəsində dəxi gözəl adamlar tərbijələjir jetişdirmişdir.

Ermənistan SSR Baş Soveti deputatı VI şe'bənin (Leninaqanın) nacalniqi M. Dilanjan, ESSR Baş Soveti deputatı Leninaqan parovoz deposunun adlı-sanlı staxanovcusu Haqop Copiqjan joldaşlar Zaqafqazija dəmirjolcularının fəxri olmuşdur.

Partijamızın XVIII Qurultajı qərarlarının, qurultajda Stalin joldaşın və onun şanlı silahdaşı, dəmirjolcuların Stalinci narqomu L. Qaqanovic joldaşın göstərişlərini həjata kecirmək ycyn jajılan Ycynçy Stalin Beşilliji adına sosializm jarışları dəmirjolunun bytyn ucastoqlarında kök salmışdır.

Ymumittifaq dəmirjolcular gynynyn jaxınlaşması ilə əlaqədar olaraq, bu jarışlar daha da genişlənməkdədir. Şimali Donetsq jolu qolleqtivinin Sovet Ittifaqının bytyn dəmirjolcularına myraçiətnaməsi jeni staxanov hərəkatının başlanmasının çanlı sybutdur.

Xalq Qomissarı L. M. Qaqanovic joldaş jykləməni jenidən artırmaq və vaqonların dövrijjəsini syr'ətləndirmək ycyn özynyn 157/ts nömrəli myvariz əmrini vermişdir. Şimali Donetsq jolunun qolleqtivi bytyn dəmirjolcuları 157/ts nömrəli əmri bolşevikçəsinə jerinə jetirmək ycyn sosializm jarışının dahada genişləndirməjə caqırır.

Şimali Donetsq jolunun qolleqtivi bytyn dəmirjolcuları myştərilərlə sıx istehsalat dostluqu dyzəltməjə, hər bir vaqondan istifadə işinə dövlət nəqteji-nəzərindən janaşmaq uqrunda myvarizə aparmaqa, bytyn Stalinci dəmirjolcular ordusunun iştirak edəçəji kytləvi sosializm jarışının jyksəltməjə caqırır.

Jerevan dəmirjolcuları bu myraciətnaməjə çavab olaraq, dəmirjolcular gynynə kimi stansijada jykləmə və boşaltma planlarının 110 prosentlə ödəməji, janaçaqa qənaət etməji və vaqonların texniki hərəkatının xejli artırmaqı və'd etmişlər.

Depo fəhlələri, defeqtli parovozların sajının 15,3 prosentdən 7,9 prosentə endirməji, parovozların syr'ətini sutqada 191 kilometrdən 210 kilometrə catdırmaq vədlərini namusla jerinə jetirirlər.

Deponun staxanovcu maşinistlərindən Stepanjan Andraniq, Gəgcjan Andraniq joldaşlar 30 ijul şərəfinə olaraq 4.318 nömrəli parovozu uzun myddət tə'mir etmədən işlətməji, parovozun texniki syr'ətini 60.000 kilometrə catdırmaqı öhdələrinə götyrmişlər. Staxanovcu maşinist qomsomolcu Hovagimjan joldaş öz gynləri mynasibətilə parovozu tə'mir etmədən 50.000.kilometr jol getməji, janaçaqa 13 prosent qənaət etməji öhdəsinə götyrmişdyr.

Leninaqan deposunun ordenli maşinist təlimatçısı Ruben Qriqorjan joldaş dəmirjolcular gynyny istehsalat qələbələrilə qarşılamaq ycyn əlindən gələn hər şeji edir.

Dəmirjol transportunun Ymumittifaq gyny, sovet dəmirjolcularının həjatında şad gyndyr.

Dəmirjolcuların bəjyk ailəsi, Lenin-Stalin partijasına, Sovet hökumətinə, Stalin joldaşa öz sədaqətlərini nymaiş etdirməklə, jeni qələbələr uqrunda, transportun gələcək jyksəklişi uqrunda daha bəjyk ruh jyksəkliji ilə myvarizə aparaçaqlar və xatırda saxlajaçaqlar ki, dəmirjolunun dyzgyn və fasiləsiz işləməsi, sosializm ölkəsinin mydafiə qabilijjətini möhkəmlətmək və xalq təsərryfatının inkişaf etdirmək ycyn ən myhymm şərtdir.

30 ijul gynyny Sovet dəmirjolcuları, revoljusion sajıqlıqı daha jyksəjə qaldırmaq, xalq dyşmənlərinin ic yzyny amansızcasına acmaq və onları daqıtmaq, faşist intervensijasının getdikcə artan təhdidi qarşısında həmişə səfərbərlik hazırlıqı vəzijjətində olmaq əvəzi altında kecirəçəklər.

Dəmirjolu transportunun dəxi, Qızıl Ordu kimi sevməli və qorumalı. Cynki, «onların arasındaki fərq odur ki, bizim ordumuz hərəkət etməjə hələ jeniçə hazırlanır, transport isə, artıq indi dəjyş pozisijalarındadır, o artıq hərəkət edir və ardı kəsilmədən, hər gyn, hər saat, hər dəqiqə hərəkət edir».

(VOROŞILOV)

Indi partija, sovet və qomsomol təşkilatlarının qarşısında duran əsas vəzifə-Şimali Donetsq jolu qolleqtivinin Sovet Ittifaqının bytyn dəmirjolcularına myraçiətnaməsini hər bir dəmirjolcuja catdırmaq, Qaqanovic joldaşın 157/ts nömrəli əmrini sarpmadan həjata kecirmək və 30 ijul dəmirjolcular gynyny staxanov hərəkatının jeni jyksəlişi ilə qarşılamaqdan ibarətdir.

«Mən Qurultajı əmin etməlijəm ki, lazım gəlsə biz mydafiə jyklərini daşımaq vəzifəsinin də öhdəsindən gələçəjik. Dəmir jolu işi dajandırmaz. Lazım gəlsə Qızıl Ordumuzu bytyn lazım olan şejlərlə tə'min edəçəjik, hər şeji vaqtında daşıjaçajıq ki, dyşmənləri darmadaqın etmək lazım olaçaqı jerdə bu daşıjaçaqlımız şejləri Qızıl Ordumuz topların aqzından, aeroplanlardan dyşmənə atsın».

(YIQ(в)P XVIII Qurultajında Qaqanovic joldaşın nitqindən).

Ə. Naqıjev